*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2019, № 1*
*Səhifə: 24-29* *ISSN: 2663-2926*

**UOT:** 821.512.162.09
Günay Qarayeva*

# BƏDİİ OBRAZDA POETİK KATEQORİYALARIN FUNKSİONALLIĞI

**Açar sözlər:** bədii obraz, poetik kateqoriya, bənövşə, simvol, metafora, motiv
**Key words:** artistic image, poetic category, violet, symbol, metaphor, motif
**Ключевые слова:** художественный образ, поэтическая категория, фиалка, символ, метафора, мотив

Bədii obrazın mətndə, süjet daxilində poetik funksionallığı onun sərhədlərinin müəyyənləşdirilməsi, hansı növ və kateqoriyaya aid edilməsində müəyyən çətinliklər meydana çıxarır. Bunun başlıca səbəbi "məcazlar ailəsinin" iç-içə bir araya gəlməsi və bir-birinə təsir mexanizminin təyinində bir tərəfdən səthiliyin, digər tərəfdən isə oxşar və fərqli xüsusiyyətlərin tam müəyyənləşdirilməməsi ilə bağlıdır. Fikrimizcə, poetik kateqoriyalar arasında əlaqə və oxşarlıqları, toqquşan və ayrılan cəhətləri müxtəlif funksiyaların daşıyıcısı olan bir obraz üzərində analiz etmək daha effektiv olar. Bu baxımdan milli poeziyamızla yanaşı, Şərq və Avropa ədəbiyyatında xüsusi önəm kəsb edən bənövşə obrazı obyekt kimi götürüləcək.

Müəyyən obrazı yalnız bir mədəniyyət daxilində dəyərləndirmək mümkün olmadığı kimi, bir obrazın digər poetik kateqoriyalarla əlaqəsini nəzərə almadan, onun əsas obrazlılıq etimologiyasını ümumədəbiyyat kontekstindən təcriddə şərtləndirmək simvol nəzəriyyəsində yanlışlığa yol açır. Bir-birilə dərin əlaqəsi olmayan mədəniyyətlər arasındakı bənzərliklər, süjetlər və konkret obrazda ortaq məqamlar K.Q.Yunqun "kollektiv təhtəlşüur" nəzəriyyəsinə əsasən bu şəkildə müəyyənləşir: "İnsanlığın zehin təkamülü halen davam etməkdədir. Bilinç dışına itilen düşünceler, bilinci etkilemeye devam eder. Bu da insanların sembollere yüklediği anlamlarla açığa çıxar" [1, s.102-103].

Simvolun semantikası baxımından yanaşdıqda bənövşə obrazı aşiq, qız və onun əsas xarakter keyfiyyətləri ilə bağlı zərifliyi, utancaqlığı, nakam məhəbbəti, qısa ömrü simvolizə edir. Obrazın semantikasında hər bir mədəniyyətin şüuraltında semiotik yaddaş mövcuddur ki, bu da öz başlanğıcını mifologiyadan, əsatir və rəvayətlərdən alır. Türk, fransız, roma, alman, rus mədəniyyətlərinə obraz transformasiyasında xüsusi təsirə malik yunan mifologiyasında "bənövşə" ilə bağlı məqamlar olduqca zəngindir. Obrazın işləklik funksiyası hər bir mədəniyyətdə eyni istiqamətdə təzahür etmir. Klassik Şərq ədəbiyyatında, xüsusilə, sufi-təsəvvüfü poeziyanın simvollarından olan bənövşə aşıq yaradıcılığında daha çox dinamiklik kəsb etmiş, XX əsr poeziyasında da bu və ya digər dərəcədə obrazlaşdırılmışdır. XV-XVI əsr türk şairlərinin divanlarında bənövşə "sevgilinin saçı, bəni, tükleri" [2, s.691], "aşığın fiziksel görüntüsü, peşmanlığı, acı çəkməsi və üzüntüsünün bənzətməsi olaraq kullanmış" [3, s.447], rus poeziyasında isə bənövşə "XIX əsrin ortalarında fransız və alman ənənələrinin təsiri" [4] ilə tez-tez xatırlanan obrazlardan biri olmuşdur. Müxtəlif xalqların ədəbiyyatında bənövşə obrazının bədii təfəkkürdəki ortaq simvolik məqamlarını aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür: məsumluq, nakam məhəbbət, günahsızlıq, qısa ömür, utancaqlıq, təmizlik, zəriflik, kədər, ölüm, sədaqət, təbiətin oyanışı (bahar) və s.

Süjetliyi zəngin olan bənövşə haqqında xeyli gəzəri mifoloji mətnlər, əfsanə və rəvayətlər mövcuddur ki, bunların içərisində yunan mifologiyasında bənövşələrin yaranmasına səbəb olan

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru, dosent.
E-mail: gunaygarayeva@gmail.com

"Attis mifi" (bu mif romalılar da olmaq üzrə bir çox mədəniyyətlərə keçmiş və müxtəlif variantları yaranmışdır) [5, 6, 7, 8], digər maraqlı bir əfsanə isə günəş Allahı Apollonun öz yandırıcı şüaları ilə Atlasın çox gözəl qızlarından birini təqib etməsi, kasıb qızın Zevsə müraciəti və onu qorumaq üçün Zevsin qızı bənövşəyə çevirərək çadırının kölgəsində gizlətməsi, bənövşənin o vaxtdan hər baharda çiçəkləyib ətri ilə göy meşələri bürüməsi süjetidir. Almanlar da əfsanələrdən irəli gələn inanclara görə yazın gəlişi, təbiətin oyanışı və ilk bənövşənin tapıldığı günü bayram etmişlər. Bu süjet cəngavər Nitqardtın əfsanəsi ilə əlaqəlidir [9].

Milli mədəniyyətimizdə də təbiət varlıqları, xüsusilə, çiçəklərlə əlaqəli simvolik məqamlar öz əsasını müəyyən mənada mifdən, əsatir və rəvayətlərdən almış, bədii yaddaşda zaman-zaman oturuşmuş obrazın bəlli bir simvolik məqamının əski kodlarını qoruyub saxlamışdır. Digər mədəniyyətlərdən fərqli olaraq milli və bədii düşüncədə bənövşənin görkəminin boynubükük olması simvolik süjetliliyini "Dünyanın yaranması" haqqında əsatirdən, bənövşənin gözəl qız, məşuq kimi səciyyələndirilməsi, baharın ilk müjdəçisi kimi mənalandırılması isə "Bənövşə" [10] adlı əfsanədən alır.

Bənövşənin milli ədəbiyyatımızda genezisi və simvolu çox qədimlərə gedib çıxır. Azərbaycan xalq oyunları içərisində "Bənövşə", "Bənövşə oyunu" adlı uşaq oyunları bunun bariz nümunəsidir.

Obraz – simvolun məzmununda hər bir mədəniyyətdə dərin mifoloji semantika təzahür edir. Mifin simvollar sayəsində mif olması eyni zamanda simvolların da əsas qaynağının mif olması ilə şərtlənir. Mifoloji təsəvvürdə işarəvi şəkildə mövcud olan bir anlamın simvolik mənaları həmin təsəvvürlərə bağlı olan mədəniyyətin simvolik sisteminin zəngin və yaxud kasadlılığını şərtləndirir. Əgər diqqətlə nəzər yetirsək, bənövşə obrazının simvolik tutumu hər bir xalqın əski təsəvvürlərindən qaynaqlanır. Mifoloji mətnlərdə qız, sevgili, zavallı aşiq kimi şəxsləndirilən bənövşə folklor örnəklərində, xüsusilə, bayatılarda, əzizləmə, lay-lay, vəsfi-hallar, oxşamalarda, aşıq yaradıcılığında zərifliyi, nakam məhəbbəti, qısa ömrü simvollaşdırmışdır. Harayına yetəydim, Bülbül olub ötəydim. Bir qom bənövşə olub,Yar bağında bitəydim [10, s.108].

Obraz simvollaşdıqda onun simvolik məqamları, konteksti də fərqli olur. Belə ki, mifoloji, zaman, ictimai – sosial kontekst bənövşə obrazının simvollaşmasında əsasdır. İlkin olaraq simvollaşan bədii obrazda mifoloji kontekst, obrazda mətnin simvolik səciyyəsi önə çəkilir. "Gəl bu bahar çağı matəm qurmayaq", "Yetim quzu kimi boyun burmayaq", "Yar gəlir deyərək yolda durmayaq", "Çətin ki, insafsız dönə, bənövşə" [11, s.104].

Klassik poeziyada bənövşənin simvolik məqamlarından biri də onun aşiq statusunda olmasıdır. Milli poeziyamızın kontekstindən yanaşdıqda, bütövlükdə "boynubükük bənövşə"nin simvolik çalarlarının həm mifoloji, zaman, sosial simvol kimi statusunun tarixi zəngindir. Avropa ədəbiyyatında bənövşənin milli ədəbiyyatımızla səsləşən ortaq simvolik məqamları çox olsa da, "boynubükük bənövşə" yalnız Şərq ədəbiyyatında çoxşaxəli poetik funksiyalara malikdir. Bu da formaca bənövşənin Avropa florası üçün xarakterik olmamasından irəli gəlir. Obrazdakı bu motiv Avropa ədəbiyyatında simvolik element kimi səciyyəvi deyil. "Boynubükük bənövşə" obrazı Şərq naturalist fəlsəfəsində, sufi-təsəvvüfü poeziyada Allaha, Yaradana səcdədə bulunan bütün canlı nəsnələrin haqqı-mütləqə sevgisinin izharı kimi aşiq obrazının ekvivalentinə çevrilir. "Neçün gülşənlərin tərkin qılıbsan?", "Düşübsən çöllərə dilcu, bənövşə!", "Belə qəddin bükülmüş, pirlər tək", "Deyirsən sübhü şam, yahu, bənövşə!", "Səni sövqi-bahar aşüftə qılmış", "Çəkər aşiq olan qayğu, bənövşə!", "Dilər ətrin, könül, badi-səbadən", "O zülfi-yar tək, xoşbu, bənövşə!" [12, s.45].

**Bənövşə bədii obraz kimi:** Simvol bədii obrazlılığın nüvəsində olmasına və ondan yaranmasına baxmayaraq, bir-birindən fərqlənir. Bədiilikdən məhrum obraz olmadığı kimi simvolik yükü olmayan obraz da yoxdur. Mahiyyətcə fərqli olan bu iki anlayış bu və ya digər dərəcədə bir-birinə zəncirvari şəkildə bağlıdır. Bədii obraz yaranmadan simvolun yaranması mümkün olmadığı kimi, simvolsuz bədii obrazın da olması mümkün deyil. Hər bir obrazda bu və ya digər dərəcədə simvol vardır. Bədii obrazda bütün fikir, diqqət konkret obraza istiqamətlənir və təqdiminə yönəlir, öz ətrafında düşünməyi tələb edir. Simvolda ideya zənginliyi, məna obrazın sərhədlərini genişləndirir və istiqaməti seçilmiş, fonda olan konkret obrazdan uzaqlaşdırır. Bənövşə bədii obrazdır. Hər bədii ob-

razda görüntü, təqdimat, məlumatlandırmaq, estetik zövq və fikir formalaşdırmaq, təsviri müəyyən obyekt üzərində cəmləmək xüsusiyyəti aparıcıdır.

"Bahar oldu açaram", "Qar-borandan qaçaram", "Başqa güllər açanda", "Mən quş olub uçaram", "Qurudar məni ayaz", "Yaşayaram bircə yaz", "Rəngim, ətrim gözəldir", "Əl vurmayın ömrüm az [13, s.32].

Şair təbiətlə ünsiyyətdə müəyyən bir məqamı qabardır, aydın təsəvvür yaratmaq, estetik zövq formalaşdırmaq məqsədilə hansısa bir anı təsvirə gətirirsə onda da mütləq cuzi də olsa simvolik məqam olur, amma bu bədii obrazlılığın nüvəsində qalır. Bu zaman obraz yaranır, amma simvola çevrilə bilmir. "Bir gün kənd yoluyla dönürdüm yenə", "Bir bulaq başında rast gəldim sənə", "Gördüm ki, başını qoyub çiyninə", "Əymisən boynunu yana, bənövşə [13, s.37].

Bədii obraz hər bir vasitədən qoparılmış parçalardan yaranmış bütövdür. Şəxsləndirmə, bənzətmə, metaforikləşmə, incə simvolik keçidlər onun yaranmasında əsas şərtlərdən biri kimi labüddür, bu keçidlər onu simvola çevirə də, çevirməyə də bilər. Filosof A.Losev yazır: "....Təmiz bədii obraz digər şeylərdən bir parça götürərək öz-özünü yaradır, özü üçün bir model sayılır. Həmçinin onda ümumi ideya, yeganə hissiyyat əlamətləri var və bu özündə sonluğu və ya sonsuz məna yeganəliyi yaradır" [14, s.194]. Simvol isə bədii obrazdan fərqli olaraq diqqəti obyektdə olan əşyanın təqdiminə yox, onun içərəsində, zəruri olan müəyyən bir əlamətinin fonunda fikri yeni ideyaya, fəlsəfi aspektlərə yönəldir. Bu zaman obyekt subyektlə əvəzlənir.

**Bənövşə metafora kimi:** Poetik kateqoriyalar arasında sərhədləri tam aydınlaşmayan, çox zaman qarışdırılan simvol və metafora mürəkkəb kateqoriyalar sırasındadır. Həm metaforada, həm də simvolda əşyanın obrazı və ideyası var. Bütün gedişatlar, köməkçi vasitələr bu ideyanın reallaşmasına xidmət edir. Digər kateqoriyalardan fərqli olaraq həm simvol, həm də metafora üçün ortaq məqamlar vardır ki, bu da tərəflər arasında sərhədlərin yaranması və konkretləşdirilməsində müəyyən çətinliklər yaradır. Metafora üçün köçürmədə konkret bir əlamət əsas götürülür, sirli qala biləcək fikri obyektdən uzaqlaşdıraraq daha tutumlu və ətraflı düşünmək tələb olunmur. Metaforada süjet daxilində bir əşyaya və yaxud məfhuma aid seçilmiş müəyyən bir əlamətin köçürülməsi və onda obrazlaşması olduğu halda, simvolda yalnız bir əlamətin deyil, köçürmə bütöv məzmuna keçir, assosiasiya, məntiqi yanaşma yolu ilə yeni ideya yaranır. Milli poeziyamızda bənövşənin metaforik simvol çalarlığında rəngi, qoxusu, boynubüküklüyü, zərifliyi, həssaslığı, az və nakam ömrü müqayisə üçün əsas keyfiyyətlərdir. Simvolik funksiyada isə obrazın qavranılma və dərkedilmə məqamında konkret bir əlaməti götürülə bilməz. Hər ikisində köçürülən əlamət obrazda müəyyən bir əlamətin işarəsinə çevrilir. Köçürülən əlamət obrazda əlaməti tez bir zamanda təsdiqləyə bilirsə, bu, metaforadır. Simvolda isə köçürmə sirli olan əşyaya işarə edir və əlamət öz təsdiqini məntiqi düşüncə, analiz, təfərrüat genişliyində tapır. "Simvol bizə məlum olmayan əşyaya işarə edir, həmçinin imkan yaradır ki, hər hansı bir gərəkli nəticə çıxarmaq üçün əşya tanınan olsun. Metafora isə heç bir zaman özünə yad olan əşyaya işarə etmir, o özü özlüyündə dərindir, o dərəcədə dərindir ki, heç bir digər əşyaya keçmədən onu uzun müddət nəzərdən keçirmək, onun haqqında uzun müddət fikrə getmək mümkündür" [14, s.156]. Milli poeziyamızda bənövşəyə dair yazılan şeirlərin əksəriyyətində bu təbiət varlığı ilə insan arasındakı müvazilik, bənövşəyə xas əlamətlərin varlıq üzərinə köçürülməsi və zərifliyinin, həssaslığının, incəliyinin, görkəminin boynubükük olması əsas əlamətlər kimi "gənc qızın metaforası" olmuşdur. "Tanrı səni xoş camala yetirmiş", "Səni görən aşiq ağlın itirmiş", "Mələklərmi dərmiş, göydən gətirmiş", "Heyif ki, dəriblər az bənövşəni". "Qurbani der: "Könlüm bundan sayrıdı", "Nə etmişəm yarım məndən ayrıdı?!", "Ayrılıqmı çəkib boynu əyridi", "Heç yerdə görmədim düz bənövşəni" [13, s.25].

Obraza xas zərif, incə görkəm, kol dibində, iz düşməyən, gözdən uzaq məkanda qərarlaşması bənövşəni – "gənc qızın metaforası" kimi obrazlaşmada poetik məqama çevirir. Qurbaninin "Qəşəng pəri"yə müraciətlə yazdığı "Bənövşəni", M.P.Vaqifin "Bənövşə" qoşmalarında sevgilinin gözəlliyi bu təbiət elementi ilə poetik müqayisədə verilir. Bədii obraza xas xüsusiyyətlərin köçürülməsində, poetik müqayisədə yalnız oxşar əlamətlərin bir məfhumdan digər məfhuma istiqamətlənməsi

deyil, eyni zamanda obrazın fərdi cizgiləri, məzmunu estetik qayənin konkretləşməsində əsas meyara çevrilir. Bu isə metaforikləşmədə obrazlılıq imkanlarını genişləndirir. "Bəlkə ilk eşqimdən, a çöllər qızı", "Kor olan gözümə indi qan sızır", "Sevib oxşamazdım bir insafsızı", "Mən səni duysaydım öncə, bənövşə" [13, s.63] .

Milli poeziyamızda bənövşəyə xas məxsusi əlamətin, obrazın görkəmi və görünüşündəki "boynu büküklüyü"nün metaforik, simvolik mənalandırılması və motivləşməsi geniş süjetə çevrilmişdir. Obrazın poeziyamızda bu görüntüsünün çalarları zəngindir. "Ayrılıqmı çəkib boynu əyridi, Heç yerdə görmədim düz bənövşəni" (Dirili Qurbani. "Bənövşəni"), "Axı neyçün boynun əyri tutursan, bəyəm dərdin məndən betər, bənövşə?", "Hərdən qədirbilməz alır əlinə, Onuncün də əyri bitər bənövşə" (Qaracaoğlan. "Bənövşə"), "Boynuburuq varıb yarın yanına, Söylə dərdi-dilim yarə, bənövşə" (Mirzəcan Mədətov "Bənövşə"), "Boynu bükük, ey öksüz bənövşələr! Ah nə çapuq saraldınız, soldunuz?" (Hüseyn Cavid. "Solğun bənövşələr"), "Boynunu kəc burma gəl indən belə, Mən sənə söz qoşum, sən məni dinlə" (S.Vurğun " Bənövşə"), "Boynunu pərişan əyməsin yana, Salmasın qəlbimi dərdə bənövşə" (Aşıq Şəmşir), "Gördüm ki, başını qoyub çiyninə, Əymisən boynunu yana, bənövşə (Balaş Azəroğlu. "Bənövşə") və s. Əşyanın görünüşündəki əlamət bənzətmə, metaforik, simvolik çalarlığı ilə əsas obrazlılıq elementinə çevrilmişdir. Motivdəki bu məqam aşıq yaradıcılığında sevgilinin, məşuqun gözəllik atributlarından biri kimi nakam məhəbbətin, utancaqlığın, zərifliyin bədii ifadəsində metaforikləşirdisə, XX əsr poeziyasında zaman, ictimai-sosial məzmunluğu ilə yeni obrazlılıq keyfiyyəti qazanır. M.Yaqubun "Bənövşə gileyi", N.Kəsəmənlinin "Yumul, bənövşəm, yumul...", H.Kürdoğlunun "Bənövşə", "Ay bənövşə", "Bərdə bənövşələri", "Kəpəz bənövşəsi", "Laçın bənövşəsi yadıma düşdü", "Ağlat məni, bənövşə", Məzahir Daşqının "Bənövşə", İsmayıl İmanzadənin "Bənövşə", Əli Vəkilin "Göyçə bənövşəsi" və s. şeirlərdə bənövşə ictimai-sosial statuslu metaforik simvol xüsusiyyəti daşıyır. "Çilik-çilik olar bir şüşə kimi, Elin işi-gücü tökülüb qalar, Yollara boylanan bənövşə kimi, Vətənin də boynu bükülü qalar, Hərə öz xeyrinə ayılsa heç nə" (M.Yaqub "Bənövşə gileyi"), "Qalarsan baxa-baxa, Kağız gül səndən baha, Yumul, bənövşəm, yumul, İndi sevənlər üçün beş qərənfil dəbdədir, Yumul, bənövşəm, yumul" (N.Kəsəmənlinin "Yumul, bənövşəm, yumul") misralarında bənövşə metaforikləşərək biganəliyin, laqeydliyin ifadəsində ictimai məzmun kəsb edir. Lakin əsrin sonlarına doğru kontekstdə simvolik məqam dəyişir. İdeya simvolun məzmununda yeni obrazlılıq keyfiyyəti qazanır. Obrazın ideya kontekstində vətənin metaforik simvollaşması iki yönümlüdür. Birinci istiqamətdə məzmunda ictimai motiv, ikincidə isə sosiallaşma aparıcıdır.

**Bənövşə motiv kimi:** Bənövşə obrazı milli poeziyamızda əsas motivlərdəndir. Aparılan müşahidələr zamanı bu obrazın bədii motiv kimi işləkliyi epitet, metafora, simvolik obraz xüsusiyyətindən daha aparıcı və aktivdir. Bu baxımdan bənövşə motiv kimi işlək funksiyaya malikdir. "Motiv geniş mənada sözdür – əsas psixoloji və ya bədii bir toxumdur, hansı ki, hər bədii əsərin əsasını təşkil edir" [15]. Motiv eyni zamanda obrazın və ya süjetin təyini funksiyasıdır. Simvol obrazda təyin olunmuş, məntiqə əsaslanmış yeni ideyadır, motiv isə mövcud ideyanın təkrarıdır. Tədqiqatçılar motiv effektivliyində beş faktoru əsas götürürlər. Bunların içərisində ilkini təkrarlıqdır, təkrar sıxlığıdır [16]. Lakin təkrarın sıxlığı da motivin zəifləməsinə gətirib çıxara bilir. Bəzən yersiz təkrarlar motivin bədii təsirini azaldır. Yaradıcılıqda şairin ətraf mühitlə əlaqəsi, psixoloji, ictimai-sosial baxışları, intim hiss və duyğuları, dünyagörüşü, gerçəkliyi qavrama və dərketməsi, eyni zamanda`kök və mənşə ilə bağlılığı çox zaman bir obrazın tez-tez təkrarlanması ilə diqqəti cəlb edir. Obraz`təkrarlanaraq simvola çevrilə bilir. Motiv isə təkrarlanan ideyadır. Mətn daxilində obraza xas müəyyən bir motivin götürülməsi, onun işləklik funksiyası yeni simvolik məzmunun yaranmasına zəmin ola bilər. Milli poeziyamızda bənövşənin boynunun bükük olması, onun zərifliyi, incəliyi obraza xas xarakterik əlamət kimi təkrarlanır. Bu təkrarlanma hər yeni mərhələ, zaman üçün yeni kombinasiyalar yaradaraq onları "həyatın yeni anlayışlarıyla" zənginləşdirərək mövcud poetik obrazın funksiya çalarlarını artırır. Bənövşəyə aid şeirlərin əksəriyyətində müəyyən bir simvolik xüsusiyyətin, ideyanın motivləşməsi bədii yaradıcılığın çıxış məqamı kimi şairin hisslərinin, yaşantılarının, psixoloji

anımlarının toplusunda ifadəsini tapmış fərdi və milli ruhun vəhdətinin təkrarı kimi şərtlənmişdir. Bənövşənin baharın müjdəçisi, boynubüküklüyü, zərifliyi, kövrəkliyi, vətənin əsas atributlarından biri olması, eyni zamanda yaddaşa çevrilməsi artıq yeni ideyadan çıxaraq təkrar ideyalar məcmusuna – motivə çevrilir. Hər bir mədəniyyətdə müəyyən anlayışa və yaxud əşyaya xas əlamətin motivləşməsi eyni cür təzahür etmir. İşarə öz ilkin aspektindən çıxaraq bədii təfəkkürdə təkrarlanır, yeni ideya, psixoloji zənginlik qazanır. Tədqiqatçıların qeyd etdiyi kimi "motiv bədii dilin işarəsi kimi ikinci mədəni işarədir" [17]. Simvolda ideya dəyişkəndir. Hər bir obraza simvoliklik statusu qazandıran ondakı ideya dəyişməsidir. Əgər ideya dəyişmir, simvolikləşən müəyyən fikir təkrarlanırsa, obraz motivləşir. Müəyyən bir simvolik yükə malik ideya motivə çevrilir. Mifoloji mətnlərdə, əfsanə və rəvayətlərdə bənövşənin boynunun bükük olması, onun həsrət çəkməsi, nakam məhəbbət yaşaması süjeti ilə əlaqəlidir. Bu süjet üçün aparıcı olan ayrılıq motivi Qurbani şeirində "Ayrılıqmı çəkib boynu əyridi, Heç yerdə görmədim düz bənövşəni" misralarındakı obrazın metaforik çalarları, eyni süjetin başqa kontekstdə yeni obrazın yaranması və motivin yeni məzmunda təkrarı kimi nəzərə çarpır. Cümşüd Türkelin "Bənövşə"sində "Araz üstə körpülərin sökülüb, Həsrət gözüm Savalana dikilib, Ayrılıqdan mənim boynum bükülüb, Sən düşübsən dildən-dilə, bənövşə!", Məzahir Daşqının "Yadıma düşəndə vətənim, elim, Sinəmin oduna qovrulur dilim, Ayrılıq çəkməkdən bükülüb belim, Əriyib sinəmin yağı, bənövşə" misralarında motiv metaforikləşərək vətən həsrətini, ayrılığı simvolizə edir.

Motiv təzələnən yeni bir mövzu, obraz, söz, ifadə ola bilər. Bir obraz tez-tez təkrarlandıqca simvollaşır. Bu, yaradıcılıqda bir neçə istiqamətdə təzahür edir. Həm simvol, həm də motiv üçün ortaq məqam təkrarlıqdır. Obraz təkrarlanıb ideya dəyişirsə simvollaşır, motivdə isə ideya dəyişmir, təkrarlanır. Simvolla motiv arasında ortaq məqam təkrarlıqdır. Bunlardan birində təkrar qayıdışda obraz simvollaşır və simvolik məqam motivə çevrilir. Digər bir tərəfdən isə müəyyən motivin yaranmasında simvolik obraz əsas və çox zaman yardımçı fəaliyyət göstərir. Obrazla bağlı motivləşmənin çalarları da müxtəlif ola bilər (mifoloji motiv, metaforik motiv, bənzətmə motiv, simvolik motiv). "Ayrılıqmı çəkib boynu əyridi, Heç yerdə görmədim düz bənövşəni" (Qurbani), "Məni də unutdu bir sevdalı yar, Mən də bənzəyirəm sənə, bənövşə" (M.Araz) "mifoloji motiv", "Axı neyçün boynu əyri tutursan, Bəyəm dərdin məndən betər, bənövşə? "Hərdən qədirbilməz alır əlinə, Onunçün da əyri bitər bənövşə" (Qaracaoğlan) metaforik motiv, "Vaqif zülflərini tərif edəndə, Gərəkdir ki, əzəl yaza, bənövşə" (Vaqif) bənzətmə motiv, "Sağaldaydı dərdimi bu Qarabağ torpağı, Mənə qismət olaydı bir də bənövşələri" (H.Kürdoğlu), "Yenə səni gördüm, düşdü yadıma, Sevimli cananın bağı, bənövşə (M.Daşqın) və s.

Hər bir motivin nüvəsində müəyyən simvolik məqam var. Müəyyən motivin təkrarlanması çox zaman motivdəki yeni simvolik obrazın, ideyanın yaranmasına təkan vermiş olur.

Məqalədə obrazın metaforik, simvolik, motiv kimi çeşidli funksionallığı milli poetik təfəkkürdə xüsusi önəm kəsb edən bənövşə obrazında açılaraq mənalandırılır. Obrazı açmaq üçün ona birtərəfli şəkildə digər mədəniyyətlərdən təcrid olunmuş halda nəzər yetirmək düzgün meyar deyildir. Bir mədəniyyət daxilində obrazın aparıcı keyfiyyətinin motivləşməsi digər mədəniyyət üçün aktual olmaya bilər. Ümumədəbiyyat kontekstində bənövşə motivində təkrarlanan məqamlar milli poeziyamızda yeni və fərdi keyfiyyətləri ilə səciyyələnir. Lakin bənövşəyə xas əlamət – boynunun bükük olması milli poeziyamızın obrazı qavrayış və dərketmə hüququnda yeganə motivdir ki, hər mərhələdə təkrarlanaraq yeni simvolik məqamların yaranması və obrazın simvolik yaddaşa çevrilməsində əsas zəmin yaradır.

**ƏDƏBİYYAT**

1. Yung Karl G. İnsan ve sembolleri (Çevireni Hatice Mukaddes İlgün). İstanbul, Kabalcı Yayımevi, 2016.
2. Bayram Yavuz. Çiçekler ve diger bitkilerin divan şiirine yansımları ile anlam çerçeveleri, Doktora Tezi, Samsun: Ondokuz mayis Universitesi, 2001.
3. Ayşe Yıldız. Klassik türk şiirinde menekşe ile ilgili benzetmelerin kökeni üzerine. Divan edebiyatı araşdırma-

ları dergisi 19, İstanbul 2017.
4. Ненарокова Мария Равильевна. Язык цветов: фиалка в русской поэзии первой половины XIX в. https://cyberleninka.ru/.../yazyk-tsvetov-fialka-v-russkoy=poezii-pervoy-poloviny-xix-v
5. Erhat Azra. Mitoloji sözlügü. Kabalçı, İstanbul, 2001.
6. Grimal Pierre. Mitoloji sözlügü. Kabalçı, İstanbul, 2012.
7. Bayladı Derman. Mitoloji sözlügü. İstanbul, Sel. Yay, 2005.
8. Gezgin Deniz. Bitki mitosları. İstanbul, Sel.Yay, 2015.
9. Символом чего являются фиалки. indoor-plants-tips.ru/simvolom-chego-yavlyayutsya-fialki-nuzhno-dlya-tvorcehestva.htm
10. Azərbaycan folkloru. Bakı, "Şərq-Qərb", 2005.
11. Məmməd Araz. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı, "Lider", 2004.
12. Xurşud Banu Natəvan. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1956.
13. Bənövşə çələngi. Almanax. Bakı, "Adiloğlu", 2007.
14. Лосев А.Ф. Проблема символа и реалистическое искусство. М., Искусство, 1995.
15. Мотив в литературе. Проблема определения понятия – https// www.myfilology.ru/137/ motiv-v-literature – problema –op-ya-ponyatiya//
16. Edebi motiv: Bir tanım ve degerlendirme – William Freedmon. Çevirən: Funda Özşener. PDF. acikerisim.deu.edu.tr/xm lui/bitreain/handle/.../11. Pdf
17. Игорь Силантьев. Поэтика мотива. https://studfi12s.net/yrevew/1715185/page:27

## FUNCTIONALITY OF POETIC CATEGORIES IN ARTISTIC IMAGE

### SUMMARY

The image is a carrier of various functions within the text, plot. Similarities between the types and categories, intertwining of "family of metaphors" and lack of common points between parties create difficulties in determining the image category. In the article we have selected a violet image, which is the leading in national and world literature for the purpose of specifying the different shades of the artistic image, use within the plot, concretization of idea and thought convey. First and foremost, the main characteristic features of the image within individual cultures have been taken into consideration. At the same time, the violin's artistic image, metaphor, symbol, motif functionality was defined on the basis of the samples. During the observations, it was revealed that, in the context of world literature, the recurring points in violet motif are characterized by their new and personal qualities in our national poetry. The characteristic feature of a violet - the bending neck (poorness) is the only motif for perception and comprehension of the image in our national poetry that is repeated at every stage, creating new symbolic moments.

## ФУНКЦИОНАЛЬНОСТЬ ПОЭТИЧЕСКИХ КАТЕГОРИЙ В ХУДОЖЕСТВЕННОМ ОБРАЗЕ

### РЕЗЮМЕ

Художественный образ выполняет различные функции в структуре текста и сюжета. Схожесть между видами и категориями, совокупность «семейства метафор», неполное раскрытие сущности понятий препятствует раскрытию категории образа. В данной статье для раскрытия многообразия функций художественного образа в сюжете, идейном и смысловом потоке произведения, выбран образ фиалки, часто употребляемый в национальной и мировой литературе. В первую очередь отмечены основные, характерные черты образа в разных культурах. Вместе с тем анализированы произведения, в которых художественный образ фиалки изображен как метафора, символ, мотив. В ходе исследования выяснилось, что образ фиалки, часто используемый в мировой литературе, национальной поэзии, обретает новые черты. В национальной поэзии фиалка в основном символизирует скромность, застенчивость. Это качество, повторяющееся в поэзии разных эпох, с каждым разом приобретает разные символические значения.